# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №12 (82) • 02.04.2012


AzadliqRadiosu.az


**DİN və Prokurorluq Quba hadisələri ilə bağlı açıqlama yaydı...** səh.4

**Gənc məhbus Bəxtiyar Hacıyevə qeyri-adi hədiyyə** səh.5

Zərdüşt Əlizadə: **«İran ordusu 12 saata Bakıda ola bilər»** səh.6

**Rayon xəstəxanası dəftərxanaya 1 ildə 30 000 manat xərcləyib** səh.10

**Səməd Vurğunun müsavatçıları "satqın və əclaf" adlandırdığı çıxışı** səh.12

**Fətullah Gülən, Ərdoğan və ABŞ kəşfiyyatı** səh.14


## Maraqlı videolar

- Qubada son vəziyyət
- Rokçu Camal Əli azadlıqda
- Ağır əməliyyatdan çıxmış Zəlimxan Yaqubun evində...

www.AzadliqRadiosu.az

# AXCP sədri Əli Kərimli qayınının həbsi barədə



*«Texnikabank»da nə baş verir?* səh.9

## 22 min 332 nəfər qəbul imtahanı verməyib, amma diplomu var

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə martın 28-də "Tələbə-məzun dövlət elektron məlumat sistemi"nin təqdimat mərasimində deyib ki, 1992-2011-ci illər arasında Azərbaycanda ali məktəblərə 1 milyon 978 min 226 nəfər imtahan verib. O deyib ki, TQDK ali məktəblərə qəbul imtahanlarında iştirak etməyən, amma əlində diplomu olanların "qara siyahısı"nı hazırlayıb.

səh.5

Aksiya




Foreign Policy: **Израильтяне купили аэродром - Азербайджан** səh.7

**Qubada həbs edilən jurnalist vəkilindən imtina etdi** səh.4

**Xaçmazda səs-küylü intihar** səh.8

**İqtisad Universitetində tələbələrin boykotu** səh.2

# İqtisad Universitetində tələbələrin boykotu



Azərbaycan Dövlət İqtisad Universitetinin həyəti

**Martın 29-da İqtisad Universitetində tələbələr kollokviumu (imtahanqabağı tələbələrin biliyinin öyrənilməsi prosesi) boykot ediblər. 100-dən artıq tələbə tətbiq edilən yeni sistemə etiraz edib. Bu barədə AzadlıqRadiosuna etirazçı tələbələr məlumat veriblər. «Boloniya sisteminə görə, hər ay biz imtahanqabağı 7 fənnin hərəsindən 5 sual olmaqla 35 suala 3 saat ərzində cavab verməliyik. Bu da fiziki cəhətdən mümkün olmayan bir işdir. Bu, tələbələrin hüquqlarının kobud pozulmasıdır. Ona görə də tələbələr hamısı buna etiraz elədi. Biz istəyirik ki, tələbələrə normal şərait yaradılsın. Tələbələri qul kimi işlətmək lazım deyil. Biz buna qarşıyıq».**

Tələbələrin dediyinə görə, prorektor Damət Bağırov əvvəlcə tələbələrə təzyiq edib ki, onlar imtahana girsinlər. «Bu, nəticə vermədi, daha sonra bizi dilə tutdular. Bir neçə tələbə imtahana girdi. Əksəriyyət isə imtina etdi».

Universitetdən aldığımız məlumata görə, yeni sistemi boykot edən daha 100-dən artıq tələbə universitetin içərisinə daxil olmaqdan imtina edib. İqtisad Universitetinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Zəfər Bayramov tələbələrin narazılığını təsdiqləsə də, problemin artıq yoluna qoyulduğunu deyib: «Bütün fakültələr üzrə kollokvium bir günə düşmüşdü deyə, belə bir vəziyyət yaranmışdı. İndi hər şey qaydasındadır, heç bir problem yoxdur».

Universitet rəhbərliyi etiraz edən tələbələri toplayıb bildirib ki, onların tələblərinə baxılıb və imtahanqabağı imtahan ləğv olunub.

**18 YAŞLI GƏNCLƏR ÜÇÜN «BAĞÇA»**

Təhsil eksperti Rüfət Əliyevin fikrincə, Azərbaycan Boloniya prosesinə qoşulsa da, yeni sistem düzgün tətbiq olunmur və bu cür problemlər üzə çıxır. O, hazırkı təhsil sistemini 18 yaşlı gənclər üçün «bağça» adlandırır: «Düşünürəm ki, rəhbərlik üçün bu, bir siqnal olmalıdır. Çünki 100 nəfər 1 nəfər, 5 nəfər, 10 nəfər deyil. Sözsüz ki, bu, təhsilin keyfiyyətinə də bir işarədir, ünsiyyətə, münasibətlərə də işarə edir. Bizdə Boloniya prosesinə çox səthi yanaşıblar, əslində köklü, lazımi dəyişikliklər hələ yoxdur».

***Maarif Çingizoğlu, Turxan Kərimov***

# İqtisad Universitetinin tələbəsi "kollokvium etirazlarını" belə izah edir

**Martın 29-da Azərbaycan Dövlət İqtisad Universiteti tələbələrinin kollokviumu (imtahanqabağı tələbələrin biliyinin öyrənilməsi prosesi) boykot etməsi ilə bağlı həmin universitetin tələbəsi Şahin Rəhman AzadlıqFM-də müsahibə verib:**

**- Siz birinci dəfə idimi ki, kollokvium verirdiniz?**

- Yox, universitetə qəbul olunandan bəri 3-4 semestr ərzində kollokvium vermişik.

**- Bəs indi nədən problem yarandı?**

- İndiyə kimi kollokviumları bizə dərs deyən seminar müəllimləri götürürdü. Ya yazılı, ya test üsulu ilə. İndi isə bu üsulu fərqli götürürdülər, həm də yeni qayda barədə bizə gec xəbər verdilər. Dedilər ki, 3 saat ərzində hər fəndən 5 sual olmaqla 35 suala cavab verməliyik. Bu da bizi qane eləmədi. İnanmıram ki, dünyanın hansısa yerində tələbə imtahana belə şəraitdə cavab verə bilər.

**- İqtisad Universitetinin tələbələri «Facebook» şəbəkəsində «yeni üsullu kollokviuma etiraz edək» adında kampaniyaya başladı, etiraz gününün vaxtı, saatı göstərildi. Virtual dünyadan başlayan etiraz real həyatda öz əks-təsirini göstərə bildimi?**

- Elmi Şura çağırıldı. Köhnə qayda ilə verəcəyik imtahanı. Yeni kollokvium zamanı isə ola bilsin testdən istifadə edilsin. Bizə belə dedilər. Hər halda etirazımızın qismən nəticəsi oldu.

**- İmtahanlar təhsilin keyfiyyətinə təsir edirmi?**

- Əlbəttə, bizim universitetdə Boloniya sistemidir, test üsuludur. İmtahan vermək üçün hər şərait yaradılır, amma kollokviumun bu üsulla verilməsi xoşumuza gəlmədi. Əslində kollokviumların belə keçirilməsi yaxşıdır. Çünki müəllim-tələbə arasında rüşvət münasibətlərinə son qoyur. Rektorun bu qərarı göstərir ki, müəllimlər qiymətimizə təsir edə bilməyəcək, hər kəs biliyinə uyğun qiymət ala biləcək. Bunu dəstəkləyirik, sadəcə, metodu vermək xoşumuza gəlmədi. Yazılı imtahanın belə üsulla keçirilməsini bəyənmədik.



Dövlət İqtisad Universiteti

**- Təhsil prosesində xoşunuza gəlməyən başqa nə var?**

- Kitabxanada dərslik kifayət qədər deyil. Məsələn, bir kitabı 15 gün ərzində qaytarmalıyıq. Qaytarmayanda tələbə biletini vermirlər, ya da qadağalar qoyurlar.

**- Bəs bu problemin həllini nədə görürsünüz? Virtual etirazlardamı?**

- Dərsliklərin elektron variantlarını tapmağa çalışırıq. Oxumaq istəyən çıxış yolu tapır. Amma bunu nəzərə alsalar yaxşı olar, bununla bağlı da müraciət etmişik.

***Səadət Akifqızı***

# «Sizin ölkədə media azaddırmı?»




**Belarusda əhalinin cəmi 23 faizi hesab edir ki, ölkədə media azaddır. Bu, dünyada ən aşağı göstəricidir. Ən yuxarı göstərici isə Finlandiyadadır. Burda əhalinin 97 faizi hesab edir ki, media azaddır.**

**ƏN NARAZILAR ERMƏNİSTANDA, QABONDA, BELARUSDADIR**

Gallup keçən il seçdiyi 133 ölkənin hər birində 15 yaşdan yuxarı 1000 adamdan soruşub ki, "Sizin ölkədə media azaddırmı?"

Gallupın sorğusu keçirilən 133 ölkə arasında öz mediasının azadlığı haqda ən aşağı fikir Belarusdan sonra Qabonda, Ermənistanda və Mavritaniyadadır. Ermənistanda rəyi soruşulanların 29 faizi medianı azad sayıb. 52 faizi isə hesab edir ki, mətbuat azad deyil.

**AZƏRBAYCANDA 15% CAVAB VERMİR**

Azərbaycanda rəyi soruşulanların 52 faizi deyib ki, Azərbaycan mediası azaddır.

33 faiz isə hesab edir ki, media azad deyil. Öz mediasının azadlığı haqda Azərbaycan oxucusunun, dinləyicisinin, tamaşaçısının bu təəssüratı dünya ölkələri ilə müqayisədə yaxşıdır, ya pisdir? Gallupın siyahısına görə, Azərbaycandakı təəssürat Nigeriya, Haiti, Əfqanıstan və Sinqapurdakı kimidir. Məsələn, Nigeriyada rəyi soruşulanların 55 faizi hesab edir ki, onların ölkəsində media azaddır, 35 faiz isə deyir ki, azad deyil. "Bilmirəm" deyənlər və ya cavab verməkdən imtina edənlər də Azərbaycanda nisbətən çoxdur- 15 faiz.

**ZİDDİYYƏT?**

Gallupın sorğusuna görə, Azərbaycanda rəyi soruşulanların 52 faizi deyir ki, media azaddır, o biri tərəfdən Freedom House hesab edir ki, Azərbaycanda media azad deyil. Burda ziddiyyət nədədir?

"Adam" sorğu mərkəzinin rəhbəri, müstəqil sosioloq Rüfət Qaragözov: "Söz azadlığı olmayan ölkələrdə insanlar siyasi suallara cavab verməkdə çətinlik çəkirlər".

**GÜRCÜSTAN...**

Qonşu Gürcüstanda rəyi soruşulanların 47 faizi deyib ki, media azaddır, 31 faiz isə hesab edir ki, azad deyil. Gürcüstanda da "bilmirəm" deyən və ya cavab verməyən çoxdur- 22 faiz.

Dünyadakı ümumi vəziyyət isə belədir ki, rəyi soruşulanların 67 faizi öz ölkəsinin mediasını azad sayır. 2010-cu ildə belə düşünənlər 65 faiz idi.

***Elxan Nəsibli***

# Qəbələdə RLS-ə etiraz




Martın 31-də saat 14 radələrində Qəbələdəki Radiolokasiya Stansiyası (RLS) yaxınlığında etiraz aksiyası keçirilib. Etiraz edənlər əllərində Azərbaycan, rus və ingilis dillərində «RLS-ə yox!» yazılmış şüarlar, plakatlar tutublar. Aksiyada İctimai Palatada birləşən siyasi partiyaların, Avro-Atlantik Şuranın və bəzi başqa təşkilatlardan nümayəndələr iştirak ediblər. Tədbirə bəzi yerli sakinlər də dəstək verib.

Aksiyanın təşkilatçısı olan «RLS-siz Azərbaycan Hərəkatı» təşəbbüs qrupunun sədri Səxavət Əlisoy AzadlıqRadiosunun hadisə yerində olan müxbirinə bildirib ki, bu yürüş Qəbələ RLS-in fəaliyyətinin dayandırılmasına yönələn simvolik bir addımdır: «RLS Azərbaycanın təkcə ekologiyasına deyil, həm də genefondumuza ciddi zərbə vurur. Bu stansiyanın Azərbaycanın təhlükəsizliyinə də heç bir köməyi yoxdur».

Aksiyaya hər hansı müdaxilə olmayıb.

***Maarif Çingizoğlu***

## AzadliqRadiosu.az saytında maraqlı videolar

- **Qubada son vəziyyət**
- **Əli Kərimli qayınının həbsinə qiymət verir**
- **Müxalifət "Nərimanov" və "Təbriz"i istəyir**
- **Dostları Bəxtiyar Hacıyevin 30 yaşını qeyd etdi**
- **Küçədə yaşamaq təhlükəsiylə üzləşən internat uşaqları**
- **Dədə Qorqud İlham Əliyev haqqında nə dedi? (250Plyus)**
- **Rokçu Camal Əli azadlıqda**
- **Ağır əməliyyatdan çıxmış Zəlimxan Yaqubun evində...**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Niyə bütün yollar şəriətə aparır?**



**Araşdırmaçı jurnalistlə məmurun daşqın və korrupsiya üstündə deyişməsi**



**Neft istehsalının pik dövrü keçdi, gəlirlərin pikinə az qalır**



# DİN və Prokurorluq Quba hadisələri ilə bağlı açıqlama yaydı...

**Martın 1-də Qubada baş verən hadisələrlə bağlı 25 nəfər istintaqa cəlb edilib. Bu məlumat martın 29-da DİN və Baş Prokurorluğun yaydığı birgə açıqlamada yer alıb. Açıqlamada deyilir ki, onlardan yalnız 7 nəfər Cinayət Məcəlləsinin 233-cü (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) və 186-cı (əmlakı qəsdən məhv etmə və ya zədələmə) maddələri ilə təqsirləndirilərək həbs olunub. Həbs olunanlar Fərhad Abdurahmanov, Alxas Dənyalov, Səxavət Vaizi, Samir Xanmədov, Xəyyam Yunusov, Zəmistan Əmiraslanov və Səfər Qəribovdur. Cinayət işi Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin icraatına verilib.**

Açıqlamada bildirilir ki, 2011-ci il noyabrın 22-də Quba Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə «Xəyal» TV videoçəkiliş aparıb. Quba şəhər bələdiyyəsinin və rayon bələdiyyələr şurasının sədri Elxan Əliyev «Xəyal» TV-nin icraçı direktoru Vüqar Qonaqovdan xahiş edib ki, icra başçısı Rauf Həbibovun çıxışının qısaldılmış variantını hazırlasın. Prokurorluğun bildirməsinə görə, bunun əvəzində Vüqar Qonaqova 140 manat ödənib.

Açıqlamada deyilir ki, Vüqar Qonaqovun tapşırığı ilə şirkətin baş redaktoru Zaur Quliyev və montajçı İslam Aslanov icra başçısının söylədiklərini ardıcıllığı pozaraq montaj edib. Videomaterial 2011-ci il dekabrın 18-də Elxan Əliyevə verilib.

Həmçinin qeyd edilir ki, Əmlak Məsələləri Dövlət Komitəsinin 13 saylı Quba ərazi şöbəsinin məsləhətçisi Zakir Məmmədov audio-video disk satıcısı işləyən Rövşən Məhərrəmovdan videoçarxın yayılmasını xahiş edib. Bu videoçarxda sabiq icra başçısı Rauf Həbibova və onun qohumlarına məxsus daşınmaz əmlakın siyahısı və görüntüləri də yer alıb.

Açıqlamada daha sonra deyilir ki, videoçarxı Rövşən Məhərrəmov 2012-ci il fevralın 20-də «odnoklassniki.ru» və «mail.ru» sosial şəbəkələrində yerləşdirib. Videomaterialı «youtube.com» saytına isə Quba şəhərindəki internet klubun icarəçisi İmran Mustafayevin ikinci qrup əlil olan Mustafa Nurullayevə məxsus loqin və paroldan istifadə etməklə yerləşdirdiyi bildirilir.

Məlumata görə, Zakir Məmmədovun mənzilinə keçirilmiş baxış zamanı destruktiv məzmunlu çağırış vərəqələri, Siyəzən rayonu ərazisində gizlətdiyi 3 ədəd disk, «Xəyal» müstəqil teleradio şirkətinə məxsus prosessor və digər dəlillər maddi sübut kimi götürülüb.

# «Xəyal TV»nin icraçı direktoru Vüqar Qonaqov vəkilindən imtina etdi

**«Xəyal» televiziyasının icraçı direktoru Vüqar Qonaqov vəkili Elçin Sadıqovdan imtina edib. Elçin Sadıqov AzadlıqRadiosuna belə deyib:**

- Onu məndən imtina etməyə vadar ediblər.

*- Necə məcbur olunub? İşgəncə veriblər? Psixoloji təzyiq olub?*

- Hiss olunurdu ki, o, çox qorxurdu. Getdik Cinayətkarlıqla Mütəşəkkil Mübarizə İdarəsinə. Dedilər ki, səni görmək istəyir. Müstəntiq Orxan Dəmirli və dövlət tərəfindən təyin olunan vəkil Şöhrət Allahmanov artıq orda idilər. Onlar məndən qabaq gəlmişdilər. Dedilər ki, Vüqar Qonaqov məndən imtina edir. Özüylə söhbət etdim. Hiss olunurdu ki, məndən imtina etməyə məcbur edilib. Deyirdi ki, mən onu başa düşməyə çalışım. Və faktiki məndən məcburən imtina edir. Bu hadisə birbaşa prokurorluğun təsiri ilə baş verib. Hesab edirəm ki, şəxsin hüququ pozulub.

Vəkil Elçin Sadıqov bunun səbəbini də izah edir: «Sadəcə, istəyirlər ki, dövlət tərəfindən təyin olunan vəkillərdən başqa vəkil prosesə girməsin. Bunu məqsədli şəkildə edirlər ki, həm təqsirləndirilənlər normal müdafiədən məhrum olunsunlar, həm də istintaqın qanunsuzluqları ictimailəşdirilməsin».

### VƏKİL DƏ, PROKURORLUQ DA TƏKZİB EDİR

Respublika Prokurorluğunun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov isə deyilənləri təkzib etdi. Vüqar Qonaqovun dövlət tərəfindən təyin edilən vəkili Şöhrət Allahmanov isə baş verənlərdən xəbərsiz olduğunu söylədi:

- Səbəbini deyə bilmərəm. Onun öz hüququdur, məndən də imtina edə bilər. Tutulan gündən yanında olmuşam. Şikayəti, narazılığı olmayıb. Ailəsinə məlumat vermişəm.

*- Vüqar Qonaqov ona qarşı sürülən ittihamları qəbul edirmi?*

- İstintaq sirrini yaya bilmərəm.

*- Özünü günahkar sayır, ya yox?*




Elçin Sadıqov

- İstintaq sirri olduğuna görə deyə bilmərəm.

Bu, vəkil Şöhrət Allahmanovun dedikləridir. O, Vüqar Qonaqovun özünü təqsirli bilib-bilməməsi haqda sualı cavablandırmadı. Amma onun sabiq vəkili Elçin Sadıqov Vüqar Qonaqovun özünü günahkar saymadığını, ittihamları qəbul etmədiyini bildirir.

### ZAKİR MƏMMƏDOV DA ÖZÜNÜ GÜNAHKAR SAYMIR

Zakir Məmmədov özünü təqsirli bilmir. Onun vəkili Səfər Hüseynov AzadlıqRadiosuna belə deyib. Səfər Hüseynov «Xəyal» TV-nin baş redaktoru Zaur Quliyevin də vəkilidir. Onun da ittihamları rədd etdiyi bildirilir.

***Şahnaz Bəylərqızı***


Arxiv foto: TQDK sədri Məleykə Abbaszadə

# 22 min 332 nəfər qəbul imtahanı verməyib, amma diplomu var

Bunu Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə bildirib. Martın 28-də "Tələbə-məzun dövlət elektron məlumat sistemi"nin təqdimat mərasimində Məleykə Abbaszadə deyib ki, 1992-2011-ci illər arasında Azərbaycanda ali məktəblərə 1 milyon 978 min 226 nəfər imtahan verib. O bildirib ki, TQDK ali məktəblərə qəbul imtahanlarında iştirak etməyən, amma əlində diplomu olanların "qara siyahısı"nı hazırlayıb. Siyahıda 22 min 332 nəfərin adı var. TQDK sədri bu insanların necə diplom almalarına aydınlıq gətirməyib.

Qəbul Komissiyasının sədri bundan əvvəl də bir neçə dəfə ali məktəblərə qəbul olanlarla oranı bitirib diplom alanların sayının çox olmasına diqqət çəkib. Məleykə Abbaszadə bildirir ki, xüsusilə də Gürcüstan və Rusiya ali məktəblərindən Azərbaycana ali məktəblərə ikinci kursa köçürmələr çoxalıb.

Məleykə Abbaszadə bu yaxınlarda "Trend" İnformasiya Agentliyinə müsahibəsində deyir: "Nədənsə belə çıxır ki, birdən-birə 200-300 azərbaycanlı qatara minir, Dağıstana gedib ali məktəbə qəbul olunur, II kursda isə hamısı qatara minib yenidən Azərbaycana gələrək burada oxuyur. Təbii ki, onların demək olar ki, hamısı bizim imtahanlarda iştirak edib aşağı nəticə göstərənlərdir. Son vaxtlar Ukraynadan da köçürmələr artıb."

Təhsil Nazirliyindən də bu ittihama reaksiya öyrənmək mümkün olmadı. Amma Təhsil naziri Misir Mərdanov bu yaxınlarda "APA" İnformasiya Agentliyinə müsahibəsində deyib ki, diplom alanların sayının qəbul imtahanlarından keçənlərin sayından niyə çox olduğunu onlar da araşdırırlar.

"Dörd il əvvəl ölkədə digər ölkələrin ali məktəblərinin 10-dan çox filialı bağlanıb. O zaman biz məhkəmənin qərarı ilə həmin ali məktəblərdə oxuyan uşaqları digər ali məktəblərə köçürdük. Tələbələrin sayının çox olmasının səbəblərindən biri budur", – deyə nazir bildirib.

# Gənc məhbus Bəxtiyar Hacıyevə qeyri-adi hədiyyə

## Dostları ona Bakıda keçiriləcək «Eurovision» mahnı yarışmasına bilet sifariş ediblər

**YANDIRILAN TORT, 30 AĞAC VƏ TELEQRAM**

Martın 28-də həbsdəki gənc fəal, sabiq deputatlığa namizəd Bəxtiyar Hacıyevin 30 yaşı tamam oldu. Doğum günündə dostları ona 3 hədiyyə ediblər. Hərbi xidmətdən yayınmaqda ittiham olunaraq iki il müddətinə azadlıqdan məhrum edilmiş gəncə dostları adından həbsxanaya böyük bir teleqram göndərilib.

Bundan başqa, Ədliyyə Nazirliyi qarşısındakı Hüseyn Cavid bağında simvolik tort yandırılıb. Bu haqda AzadlıqRadiosuna Bəxtiyar Hacıyevin dostları qrupunun üzvü Nərmin Əhməd deyib: «Biz kartondan simvolik tort hazırlayıb üstündə Bəxtiyarın «günahlarını» yazdıq. Yəni Harvardda təhsili, deputatlığa müstəqil namizəd kimi müxtəlif tədbirlərdə iştirakı, beynəlxalq uğurları... Üzərində də şamlar yandırdıq. Elə orda da qoyduq».

**BƏXTİYARIN ADINA «EUROVİSİON»A BİLET ALINIB**

İkinci hədiyyəyə gəlincə. Bəxtiyar Hacıyevin dostları onun adına bu ilin mayında Bakıda keçiriləcək «Eurovision» mahnı yarışmasına online bilet sifariş ediblər: "Bilet artıq sifariş edilib. Biz onu Bəxtiyarın özünə təqdim edəcəyik".

*- Demək ümid edirsiz ki, mahnı yarışmasınadək o azadlığa buraxılacaq?*

- Bəli. Həm ümid edir, həm də istəyirik. Bunu ikibaşlı mesaj kimi də qəbul edə bilər -həm hakimiyyət, həm də gənclər.

Üçüncü hədiyyəyə gəlincə, dostları onun oxuduğu məktəbin həyətində 30 ağac əkiblər. 30 yaşın şərəfinə... Bakıdakı dostlardan bir neçəsi isə həbsxanada Bəxtiyar Hacıyevı təbrik etməyə yollanıblar.



**HARVARDDAN MÜRACİƏT**

Elə bu günlərdə ABŞ-ın Harvard Universitetinin professorları Bəxtiyar Hacıyevin azadlığa buraxılması üçün növbəti dəfə Azərbaycan prezidentinə müraciət ediblər. Bəxtiyar Hacıyev Harvard Universitetinin Kennedi məktəbi və Harvard Hüquq məktəbinin məzunudur. Onlar prezidenti gənc fəalın həbsinə diqqət göstərməyə səsləyirlər.

***Şahnaz Bəylərqızı***




# AzadlıqFM:

Hər həftənin cümə günü **14:00-15:00** arasında **Facebook** məkanında baş verən maraqlı olayların müzakirəsinə qatıla bilərsiniz. Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər verilişə dəvət edilir. Veriliş eyni vaxtda **AzadlıqRadiosunun Facebook** səhifəsində də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. **Azadlıq FM**-in arxiv səhifəsi də var.

# Zərdüşt Əlizadə: «İran ordusu 12 saata Bakıda ola bilər»


Zərdüşt Əlizadə

**Politoloq Zərdüşt Əlizadə AzadlıqRadiosuna müsahibəsində «Foreign Policy»də dərc olunan məqalədə Azərbaycan barədə deyilənləri ciddi saymadığını deyir.**

– Mən Azərbaycan hakimiyyətinin bu qədər ağılsız olduğuna inanmıram. Əgər onlar bunu ediblərsə (İsrailə hava limanı veriblərsə -red.), onlar Azərbaycanı çox böyük bir təhlükə qarşısına qoymuş olarlar.

*- Nəyə görə ağılsızlıq adlandırırsız bu hərəkəti?*

- Rusca bir məsəl var ki, «ağalar zarafat edəndə nökərlərin başları yarılır». Böyük dövlət, dünya siyasətində öz siyasətləri, məqsədləri olan Amerika, İran, İsrail, Çin, Fransa, Rusiyanın öz işləri var. Bizim kimi kiçik və zəif dövlətlər böyüklərin oyununa qatılanda azı döyülüb başları partlayar. Bu, bizə lazım deyil. Azərbaycanın bir dövlət kimi bir xarici siyasət problemi var, o da Dağlıq Qarabağın qaytarılmasıdır. Bu məsələdə də Rusiya, Amerika, Fransa həmrəydirlər və Ermənistanın tərəfindədirlər, həmçinin vasitəçi rolunu imitasiya edirlər. Azərbaycan hakimiyyəti də Qarabağ probleminin həllində ürəkdən maraqlı deyil, çünki münaqişənin mövcudluğu hakimiyyət resursudur. Ermənistanda da vəziyyət belədir. Belə olan halda hakimiyyət üçün vəziyyət yaxşıdır, oturublar neft-qaz borularının, kreditlərin, büdcənin üstündə, nəhəng pulları hesablarına keçirib basıb yeyirlər. Xalq, müxalifət isə əzilir. Belə olan halda nəylərinə lazımdır xarici macəralara qoşulub öz kürsülərini laxlatsınlar?

**İRAN ORDUSU 12 SAATA BAKIDA OLA BİLƏR**

*– Zərdüşt bəy, həmin yazıda bir versiya da səslənir ki, aerodromlardan birbaşa istifadə ciddi söhbət deyil, lakin bir şey şübhə doğurmur ki, İsrail qırıcıları hücumdan sonra Azərbaycanda yerə enmək istəsələr, onlara icazə veriləcək. Bu versiya nə dərəcədə realdır sizcə?*

– Fərz edək ki, belə bir şey baş verdi. İran elan edib ki, onlara təcavüzə qoşulan istənilən qüvvəyə, məntəqəyə sarsıdıcı zərbə endirəcəklər. Azərbaycan ordusunun fərasətinə hamı bəllidir. İran ordusu Amerika və İsraillə bacarmasa, 12 saatdan sonra Bakıda olacaqlar. Astara-Bakı şosesində hərəkət sürəti hansı həddə imkan verirsə, o sürətlə də Bakıya gələcəklər. Ermənistan qarşısında aciz olan Azərbaycan ordusu İran ordusuna neyləyəcək? Və haqsız mövqedə olacaq.Təcavüzdə iştirak edən dövlətə zərbə endirərlər.

*– Əli Həsənov da deyir ki, bütün bunlar media spekulyasiyasıdır. Yəni bölüşürsüz onun dediklərini.*

– Deyirlər «yalançının evi yandı, heç kəs inanmadı». Əli Həsənov hərdən həqiqətə yaxın fikirlər deyəndə ona şübhəylə yanaşmaq lazım deyil ki? Azərbaycanda doğrudan da siyasətşünaslar, təşkilatlar, siyasi partiyalar, qüvvələr var ki, Azərbaycanla İran arasındakı münasibətləri korlamaqda maraqlıdırlar. Açın Azərbaycan qəzetlərini – QHT rəhbərləri, siyasətçilər, siyasi partiya rəhbərləri elə bil oğul toyu edib, qızlarını da ərə verirlər. Seriya yazılar gedir ki, Amerika-İsrail qüvvələri İranı vuracaq. Nəyə sevinirsiz? 20 milyon azərbaycanlı yaşayır İranda. İranı bombalayanda oradakı azərbaycanlılar ölməyəcək siz bilən?

Mən demirəm İran qüsursuz dövlətdir. Ancaq iki-üç, ya beş dövlət İranı vurursa, bu, beynəlxalq hüququn pozulmasıdır. Azərbaycanın Qarabağ münaqişəsində ümidi beynəlxalq hüququn aliliyidir. Beynəlxalq hüquq bir yerdə pozulursa, deməli, aşınır, zəifləyir, tarixin zibilliyinə atılır. Deməli, Azərbaycanın da beynəlxalq hüquqa iddiası mənasını itirir. Bu sadə məntiqi bizimkilər anlamırlar.

***Arifə Kazımova***

# AzadlıqRadiosunu Androiddə dinləmək olar




**Əvvəllər AzadlıqRadiosunu canlı olaraq mobil telefonlarda necə dinləmək barədə məlumat vermişdik.**

Bildiririk ki, indi xüsusi mobil App telefonuna yükləməklə AzadlıqRadiosunu Android əməliyyat sistemi ilə işləyən mobil telefonlarda da izləmək olur.

Əlavəni yükləməklə mobil telefonunda nələr əldə edirsən:

• Gündə 24 saat və həftənin 7 günü Radionu canlı, ya da arxivdən dinləyərkən yazıları oxumaq,

• Səhifəyə internetdə olmadan - offline rejimdə baxmaq üçün yazıları, videoları və ya audionu yükləmək,

• Audioları birbaşa arxivdən dinləmək (podcast),

• AzadlıqRadiosunun yayım cədvəlinə baxıb, növbəti proqramlar haqda əvvəlcədən xəbər tutmaq,

• Səsləri audio arxivdə axtarmaq,

• Təcili xəbərin, foto və ya videon varsa, bu əlavəmizdən istifadə etməklə paylaşmaq,

• Xəbərlərini, video və fotolarını e-mail, Twitter və Facebook vasitəsilə paylaşmaq.

**Əlavəni** http://www.azadliq.org/info/mobile_new/2178.html internet ünvanından telefona yükləmək olar.

# Азербайджан как "израильский аэродром"

*"Израильтяне купили аэродром - Азербайджан", цитирует Foreign Policy неназванного высокопоставленного чиновника администрации США. Автор статьи - журналист Марк Перри. Он, ссылаясь на американских чиновников, пишет что по предположению администрации США, Израиль получил доступ к военно-воздушным базам в Азербайджане.*

После публикации данной статьи Азербайджан заявил, что страна «не предоставляла Израилю доступ к своим военно-воздушным базам». Марк Перри ссылается на депешу от 2009 года "Скрытый симбиоз Азербайджана с Израилем", опубликованную на WikiLeaks. В нем зампосла США в Баку Дональд Лу писал: «Президент Азербайджана Ильхам Алиев сказал, что отношения его страны с Израилем - словно айсберг: «на девять десятых скрыты от глаз».

По словам источников, в администрации США пришли к следующему выводу: «Подводные аспекты» израильско-азербайджанского альянса увеличивают риск израильского удара по Ирану. Израиль получил доступ на базы ВВС у иранской границы».

Разведслужбы США встревожены: военная экспансия Израиля в Азербайджан - помеха для попыток США разрядить израильско-иранские трения. «Теперь наши штабы должны прорабатывать последствия не только сценария, при котором война распространится на район Персидского залива, но и варианта, когда война распространится на Кавказ», - пишет автор.

На этом фоне могут осложниться отношения Азербайджана с Турцией, которая страшится негативных экономических и политических последствий войны с Ираном. Ранее, в ходе визита в Тегеран, министр обороны Азербайджана Сафар Абиев публично заявил: «Использование Азербайджана для удара по Ирану исключено. Иран - братская и дружественная страна».

"Но правительство Азербайджана все равно в силах оказать Израилю ценную помощь", - полагает Марк Перри. Автор опять приводит слова источника в военной разведке США: «Министр обороны Азербайджана не заявил открыто, что израильским бомбардировщикам не разрешат приземлиться в Азербайджане после налета, а израильским подразделениям, которые будут заниматься поиском и спасением сбитых летчиков - базироваться там. Мы внимательно отслеживаем действия Ирана. Но теперь мы отслеживаем и то, что Израиль делает в Азербайджане. И нам это не нравится».

В феврале 2012 года Азербайджан заключил с Израилем контракты на поставки беспилотников, систем ПРО и других вооружений на сумму 1,6 млрд долларов. Между Баку и Тегераном возникли острые трения: Иран обвиняет Баку в поддержке «групп киллеров, прошедших обучение в Израиле и охотящихся за иранскими учеными».

Баку же недавно объявил об аресте 22 предполагаемых иранских шпионов. «Азербайджанские аэродромы принесут большую пользу Израилю: самолетам F-15 и F-16 не придется дозаправляться по пути в Иран, если после авианалета они смогут приземлиться в Азербайджане. Это особенно важно, так как у Израиля не очень много самолетов-заправщиков, а опыт дозаправки в воздухе и вовсе минимальный. В Азербайджане имеется самая подходящая авиабаза - аэродром, где в советские времена дислоцировались самолеты "Су-25», - пишет Перри.

Автор считает, что и Азербайджан извлекает выгоду из связей с Израилем: «Израиль занимает второе место среди покупателей азербайджанской нефти. Закупки израильского оружия позволяют Баку обойти эмбарго ОБСЕ. Наконец, модернизация азербайджанской армии четко дает понять Ирану, что вмешательство в дела Азербайджана может стоить дорого».

В 2010 году израильский политик Эфраим Снэ назвал Азербайджан "символом прогресса и современности в Кавказском регионе".

«Смехотворное утверждение: Азербайджан - бандитская семейная клептократия, один из самых коррумпированных в мире режимов», - комментирует один из информаторов Марка Перри, американский дипломат в отставке.

***По материалам InoPressa***

# Разногласия Эрдогана с Хаменеи



**Реджеп Эрдоган (слева) и аятолла Али Хаменеи, Машхад, 29 марта 2012**

*придерживаются совершенно разных позиций по сирийскому конфликту. В ходе завершившегося визита в Тегеран премьер-министр Турции Реджеп Эрдоган заявил, что режиму сирийского президента Башара Асаданельзя доверять, и назвал единственным выходом из кризиса проведение выборов и установление демократии.*

Иранский верховный лидер аятолла Али Хаменеизаявил на встрече с Эрдоганом, что Иран будет защищать режим Асада, и выступил резко против какого-либо иностранного вмешательства в Сирии. В Турции находятся более 17 тысяч сирийских беженцев, а также базируются бойцы повстанческой Свободной сирийской армии. Власти Турции также разрешают сирийской оппозиции регулярно проводить встречи в Стамбуле.

**На сайте РадиоАзадлыг - radioazadlyg.org:**

- Чингиз Султансой: **Пощечина исполнительной власти**
- **Баку опровергает Foreign Policy**
- Доминик Стросс-Кан: **продолжение секс-скандалов**
- **Забастовка испанцам не помогла**

# Xaçmazda səs-küylü intihar

## Sahibkar ailəsinin faciəsində icra başçısı da günahlandırılır



Xaçmazda «Arzu» Ticarət Mərkəzinin sahibləri - direktor Gülnarə Həbibova və onun qardaşı Fuad Həbibov

**2010-cu ildə qətlə yetirildiyi iddia edilən xaçmazlı iş adamı Nəcibə Babayevanın qızı Təranə Həbibova bu il martın 28-də beşinci mərtəbədən özünü ataraq intihar edib. İntihara səbəb anası ilə bağlı istintaqın düzgün aparılmaması, cinayətin ört-basdır edilməsi göstərilir. Bunu AzadlıqRadiosuna Nəcibə Babayevanın oğlu Fuad Həbibov bildirib. Fuad Həbibov hesab edir ki, bütün bunlar Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevin anasına məxsus «Arzu» Ticarət Mərkəzini mənimsəmək üçün onun ailəsi ilə çəkişmələrin nəticəsidir:**

### «ANAM ÖLDÜRÜLƏNDƏN SONRA BACIM DEPRESSİYAYA DÜŞMÜŞDÜ»

«Anam öldürüləndən sonra bacım son 1-2 ayda depressiyaya düşmüşdü. Anamın qatilinin və qətlin sifarişçisinin bilərəkdən tapılmamasına, icra başçısı Şəmsəddin Xanbabayevin rəhbərlik etdiyi bir qrupun sahibi olduğumuz «Arzu» Ticarət Mərkəzini əlimizdən almasına dözə bilməyib özünü atdı. Biz ona ümid verirdik ki, bu işin üstü açılacaq, haqq-ədalət yerini tapacaq. Amma heç bir şey olmadı. Səhər o biri bacım yatmış olarkən pəncərədən özünü atıb».

### PREZİDENTİN XAÇMAZA SƏFƏRİNDƏN SONRA HƏBİBOVLAR AİLƏSİNDƏ YARANAN ÜMİD

Fuad Həbibov deyir ki, rayon icra hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevin adı keçdiyi üçün hüquq-mühafizə orqanları bu məsələni ört-basdır etməyə çalışırlar. Amma deməsinə görə, prezident Xaçmazda olarkən digər bacısı Gülnarə evin üstündən qışqıraraq ona müraciət edib. Bundan sonra rayon prokuroru istefaya göndərilib. Fuad Həbibov deyir ki, bu hadisə işin üstünün açılacağına ümid yaratsa da, sonradan heç nə dəyişməyib.

O, Baş prokuror və Daxili İşlər nazirinin onları qəbul etdiyini də bildirir. Amma vəziyyət yenə də dəyişməyib. Fuad Həbibovun fikrincə, ortada olan nəticə odur ki, ailəyə məxsus «Arzu» Ticarət Mərkəzini əllərindən almaq üçün artıq bütün məhkəmə instansiyaları keçilib. İndi Ali Məhkəmə də qarşı tərəfin xeyrinə qərarı qüvvədə saxlasa, artıq ticarət mərkəzi ailənin əlindən çıxacaq. Fuad Həbibov əmindir ki, elə belə də olacaq. O, bunu onların arxasında heç kimin dayanmaması ilə izah edir.

«Arzu» Ticarət Mərkəzinin sahibi Nəcimə Babayeva 2010-cu il sentyabrın 15-də evində boğazı kəsilərək ölmüş halda tapılıb. Onun qızı - 49 yaşlı Təranə Həbibova Qubada yaşayırmış. Qonşularında hüzr yeri düşdüyü üçün Xaçmaza bacısı Gülnarə Həbibovanın evinə gəlib və səhər saatlarında beşinci mərtəbədə yerləşən mənzilin pəncərəsindən özünü atıb.



Şəmsəddin Xanbabayev

Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev isə bu işdə adının hallandırılmasını əsassız sayır. Deyir ki, bir nəfər nəyisə iddia edə bilər. Ancaq Xaçmazın 165 min əhalisi var və heç kim bu deyiləni təsdiqləməz:

### «AMALIM MÖHTƏRƏM PREZİDENTİMİZƏ XİDMƏT ETMƏKDİR»

«İntiharla bağlı araşdırma gedir. Daxili İşlər Nazirliyindən və Baş Prokurorluqdan gəlib, iş aparırlar. Mənim bazarla nə işim? Belə şeylər məndən çox uzaqdır. Mənim amalım möhtərəm prezidentimizə xidmət etməkdir. Bu istiqamətdə də Xaçmazda əlimdən gələni edirəm».

Baş Prokurorluq da bu ailənin iddialarını əsassız sayır.

***İlqar Rəsul***



Arxiv foto

# Tərtərdə əsgər yoldaşını və özünü öldürüb

Martın 29-da Tərtər rayonundakı hərbi hissələrdən birində silahlı insident baş verib. Əsgər Məmməd Abbasov xidmət yoldaşı Emil Həsənovu avtomatla güllələdikdən sonra özünü vurub. Onların yanında olan iki əsgər də yaralanıb, amma vəziyyətləri pis deyil. Fakt üzrə cinayət işi qaldırılıb, istintaq gedir. Məlumatı Müdafiə Nazirliyinin mətbuat xidməti yayıb.




Qarşılaşdığın problemlər, qanunsuz davranışla bağlı **"Qaynar Xətt"**ə yaz, hüquqşünaslardan məsləhət al. Suallara hər həftənin şənbə günü **saat 18:05-dən 19-00-a** qədər hüquqşünaslar canlı efirdə **"Qaynar Xətt"** verilişində cavab verəcəklər.

**"Qaynar Xətt"lə əlaqə vasitələri:**

İstənilən vaxtda qaynar xəttimizə - **(012) 436 77 41** nömrəli telefona zəng edib sual və şikayətinizi səsləndirə bilərsiniz. Zənglər avtomat tərəfindən qəbul olunduğundan, rica edirik şikayətinizi bildirəndən sonra əlaqə nömrənizi də deyəsiniz ki, sizinlə əlaqə saxlaya bilək.

Yalnız canlı efir zamanı hər həftənin şənbə günü **saat 18:05-dən 19:00-a** qədər **efir@azadliqradiosu.az** elektron ünvanımıza e-mail şəklində, **(+99450) 7441017** nömrəsinə SMS şəklində şikayətlərinizi yaza bilərsiniz ki, suallarınız canlı efirdə cavablandırılsın.

# AXCP sədri Əli Kərimli qayınının həbsi barədə

## «Texnikabank»da nə baş verir?

**«Texnikabank» Açıq Səhmdar Cəmiyyətinin (ASC) Yasamal filialının sədr müavini Elnur Seyidov barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib. O, dələduzluqda və mütəşəkkil dəstə tərkibində külli miqdarda pul mənimsənilməsində ittiham olunur.**

**SİYASİ İŞ?**

Amma Elnur Seyidov AXCP sədri Əli Kərimlinin qayını olduğundan artıq bu həbsin siyasi bir iş olması barədə fikirlər səslənməkdədir. Elə bu fikri ilk səsləndirən də Elnur Seyidov özü olub. Vəkili Əshabəli Mustafayevin AzadlıqRadiosuna dediyinə görə, martın 29-da Səbail Rayon Məhkəməsində keçirilən prosesdə Elnur Seyidov ona qarşı irəli sürülən ittihamla özünü təqsirli saymadığını deyib. Bildirib ki, fəaliyyəti zamanı hər hansı qanunsuzluğa yol verməyib və bu həbs onun AXCP sədrinin yaxın qohumu olması ilə bağlıdır. Əshabəli Mustafayev deyir ki, müdafiə etdiyi şəxs ittiham qərarına baxanda xeyli təəccüblənib. Belə ki, o, «Texnikabank»ın Müşahidə Şurasının sədri Etibar Əliyevin göstərişi ilə adamlardan əlavə pul yığaraq Şura sədrinə verməkdə ittiham olunur: «Ona ittiham elan olunması qərarına baxanda dedi ki, «burda mənə aid heç nə yoxdur axı, məni niyə saxlayıblar?». Dedi «mən indi belə başa düşdüm ki, məni qohumuma görə tutmusunuz». Dedi «artıq neçənci dəfə mən işdən çıxarılmışam». Artıq bu həbs belə qiymətləndirilməyə başlanılır».

**«MƏN ONA HƏMİŞƏ DEYİRDİM Kİ, ÖZÜNƏ BAŞQA İŞ TAP»**

AXCP sədri Əli Kərimli də hesab edir ki, bu həbs birbaşa ona qarşı hakimiyyətin qərəzli münasibətindən xəbər verir: «Elnur Seyidov bizim qohumlar arasında yeganə adam idi belə bir işdə çalışırdı. Mənim bütün yaxın qohumlarımı işdən çıxarıblar. Mən həmişə ona deyirdim ki, özünə başqa bir iş tap. Deyir ki, 20 ildir mən bank sektorundayam və sizin siyasətlə də maraqlanmıram, məni siyasətə necə bağlaya bilərlər? Deyirdim ki, hakimiyyət nə vaxtsa bu məsələyə əl bulayacaq».

Bu arada «Texnikabank»ın Müşahidə Şurasının sədri Etibar Əliyev barəsində


Əli Kərimli

ziddiyyətli məlumatlar yayılmaqdadır.

<u>TEXNİKABANK:</u> **ETİBAR MÜƏLLİM HƏBS OLUNMAYIB, GÖRÜŞDƏDİR**

Bir müddət əvvəl həbs olunmuş Etibar Əliyevin bu günlərdə azadlığa buraxılması haqda mediada məlumatlar gedib. Etibar Əliyevin hazırda həbsdə olmasını elə «Texnikabank»da da təsdiqləmirlər. Həbs xəbəri çıxanda, bankın ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İnam Hacıyev bu xəbəri nə təsdiq, nə də inkar etmişdi. Martın 30-da isə adını deməkdən imtina edən bank işçisi bildirdi ki, Etibar Əliyevin həbsi ilə bağlı məlumat yalandır.

- Etibar müəllim yerində yoxdur, hazırda görüşdədir.


Etibar Əliyev

*- Xanım, Etibar müəllimin saxlanması ilə bağlı bir müddətdir məlumat yayılıb. Siz bu barədə nə deyə bilərsiniz?*

- Yox, bu informasiya yalandır.

**HƏR ŞEY İSTİNTAQDA AÇILACAQ**

Vəkil Əshabəli Mustafayev isə deyir ki, ona Etibar Əliyevin və bankın bir neçə filial rəhbərinin həbs olunduğunu bildiriblər: «Bunlar deyirlər ki, Etibar Əliyevlə birlikdə bir neçə filial rəhbəri içəridədir və digər filial rəhbərlərinin də həbsi gözlənilir. Bilirsiniz, konkret heç bir şey deyilmir. Bu da müəyyən şübhələr yaradır. Deyirlər ki, hər şey istintaq zamanı açılacaq».

**MTN DEYİR ONLARDA MƏLUMAT YOXDUR**

Milli Təhlükəsizlik Nazirliyinin İctimaiyyətlə Əlaqələr Mərkəzinin rəhbəri Arif Babayev «Texnikabank» rəsmilərinin həbsi ilə bağlı məlumatsız olduğunu deyir: «İctimai əlaqələr mərkəzində bu barədə məlumat yoxdur».

**BANKIN MÜXBİR HESABI NİYƏ DƏYİŞİB?**

Bu ərəfədə «Texnikabank» ASC-nin «İnşaatçılar» filialı martın 30-da bütün müştərilərinə bankın müxbir hesabının



Samir Əliyev

dəyişdirilməsi haqda məlumat göndərib. İqtisadçı Samir Əliyev deyir ki, bank müxbir hesabını daha çox öz fəaliyyət istiqamətini dəyişdiyi zaman yeniləyir. Ekspertə görə, belə bir dəyişiklik həm də bankın başqa ələ keçməsi səbəbindən də baş verə bilər: «Bunu bankın başqa ələ keçməsi ilə əlaqələndirmək olar. Amma bu məsələdə bu izah da bir qədər çətindir».

**HƏBS MƏSƏLƏSİNİN ETİRAFI NƏYİ DƏYİŞƏ BİLƏR?**

Qaldı bankın həbslərlə bağlı qəti mövqe bildirməməsinə, Samir Əliyev deyir ki, bank sektoru çox həssas bir sahədir. Hər hansı xoş olmayan məlumat birbaşa bankın reputasiyasına təsir göstərə, insanların o bankdan üz döndərməsinə gətirib çıxara bilər. Ekspertə görə, bu səbəbdən də bank özü ilə bağlı belə məlumatların mediaya sızmasının qarşısını mümkün qədər alır.

«Texnikabank» Açıq Səhmdar Cəmiyyəti 1993-cü ildə yaradılıb. Bankın 35 filialı və 5 şöbəsi fəaliyyət göstərir. Bankın səhmdarları «World Wines Private Company» (75%), «Kazimir Caspian Fund Limited» (10%) və Etibar Əliyevdir (15%).

***Maarif Çingizoğlu***

# Rayon xəstəxanası dəftərxanaya 1 ildə 30 000 manat xərcləyib


Arxiv foto

Gədəbəy sakini Səyyaf Musayevin 28 yaşlı oğlunun beynində bir neçə il əvvəl xoşxassəli şiş tapılıb. S.Musayev deyir ki, əməliyyat üçün lazım olan məbləği toplaya bilmədiyindən oğlunun səhhəti tez-tez pisləşir, buna görə də oğlu daim həkim nəzarətində olmalıdır. Ayda 2-3 dəfə oğlunu Bakıya müayinəyə gətirir. S.Musayev deyir ki, oğlunun vəziyyəti pisləşəndə, təcili yardım üçün Gədəbəy Mərkəzi Rayon Xəstəxanasından çağırış edir, amma təcili yardım maşını onun yaşadığı kəndə ya 3-4 saatdan sonra, ya da heç gəlmir. S.Musayev Gədəbəyin mərkəzindən 7 kilometr məsafədə yerləşən Dəyirmandağ kəndində yaşayır:

**«TƏCİLİ YARDIM YA GƏLMİR, YA DA 3-4 SAATA ÇATIR»**

«Gədəbəydə müasir tipli xəstəxana tikiblər. Amma keyfiyyətli tibbi yardım göstərilmir. Saat 3-dən sonra isə orada kimsəni tapmaq olmur. Elə olur kənddə xəstəyə təcili yardım lazım olur. Xəstəxanadan çağırış edirsən, ən yaxşı halda 3-4 saatdan sonra çatır, ya da heç gəlmir. Məcbur olub özümüz gedib həkimləri minnətlə gətiririk. Xəstəxananın özündə isə istilik yoxdur. Xəstələrə soyuq otaqlarda baxılır».

Xəstəxanada poliklinika, terapiya, cərrahiyə, doğum, uşaq və təcili yardım şöbələri var. Xəstəxananın baş həkimi Ramiz Pirverdiyev deyir ki, günün 24 saatı növbə ərzində tibb ocağı fəaliyyət göstərir.

**108 KƏNDƏ 11 TƏCİLİ YARDIM MAŞINI**

Ümumilikdə Gədəbəydə bir mərkəzi xəstəxana, 5 kənd xəstəxanası, 16 ambulatoriya və 25 tibb məntəqəsi var. Rayon üzrə 89 həkim, 352 tibb işçisi var. Gədəbəy Mərkəzi Rayon Xəstəxanasında isə 35 həkim, 150-yə yaxın orta tibb işçisi çalışır. 108 kəndi olan Gədəbəy rayonunda 11 təcili yardım maşını fəaliyyət göstərir. Baş həkim Ramiz Pirverdiyev deyir ki, təcili yardım maşınları növbə ilə - gündə 3 maşın işləyir: «Bir gündə 3 maşın növbədə olur. Hər maşın bir istiqamət üzrə gedir. Çatdırırlar. Xəstəxananın Təcili Yardım Şöbəsi günün 24 saatı fəaliyyət göstərir. Gecə növbəsində 2 həkim, 2 orta tibb işçisi, 1 dispetçer olur».

**«UCQAR KƏNDLƏRƏ TƏCİLİ YARDIM VERTOLYOTLARI ALINMALIDIR»**


Azər Mehtiyev

İqtisadçı-ekspert Azər Mehtiyev isə deyir ki, tək Gədəbəydə yox, Azərbaycanın bir çox ucqar kəndlərində səhiyyə xidmətlərinin göstərilməsində ciddi problemlər var: «Bu cür rayonlara hətta təcili yardım vertolyotlarının ayrılması və təcili yardım xidmətlərinin göstərilməsi zəruridir».

**1 MİLYONLUQ SİFARİŞ...**

Xəstəxananın baş həkimi Ramiz Pirverdiyev AzadlıqRadiosuna deyir ki, xəstəxana yerli icra hakimiyyətinin hesabına maliyyələşir. Xəstəxanaya ayrılan xərclər icra hakimiyyətinin illik büdcəsində öz əksini tapır və xərclər istiqaməti öncədən müəyyənləşir. O, xəstəxanaya il ərzində ayrılan vəsait haqda məlumat vermədi. Amma Satınalmalar üzrə Dövlət Agentliyinin 2011-ci ildə keçirdiyi tenderin nəticələrinə görə, Gədəbəy Mərkəzi Rayon Xəstəxanası ötən il 998 min 360 manatlıq sifariş verib.

**DƏFTƏRXANAYA NƏ QƏDƏR XƏRCLƏNİB? 30000, YOXSA 5000...**

Xəstəxana 2011-ci ildə bərk və yumşaq inventar alınmasına 125 000, kənd təsərrüfatı və ət-süd məhsullarının alınmasına 60 000, dəftərxana ləvazimatlarına 30 000, təsərrüfat mallarına isə 40 000 manat xərcləyib. Ramiz Pirverdiyev keçirilən tenderlər haqda ətraflı məlumatı verə bilməsə də, tender siyahısında bəzi rəqəmlər onu da təəccübləndirdi:

- *Təxminən bir ilə dəftərxana xərclərinə nə qədər xərcləyibsiniz?*

- Gərək onu sənədlərə baxıb deyim.

- *Məsələn, dəftərxana xərclərinə 30000 manat xərcləyə bilərsiz?*

- Yox, əşi... 30000 manat dəftərxana xərcinə?! Maksimum 4-5 min manat xərcləyə bilərik.

Ramiz Pirverdiyev martın 27-də - rəsmi iş günündə xəstəxananın birillik xərcləri barədə ətraflı məlumat verəcəyini vəd etdi. Lakin bir gün sonra o, bu xərclərin xəstəxananın daxili işi olduğunu və heç bir məlumat verə bilməyəcəyini bildirdi.

***Nüşabə Fətullayeva***

# Ünvanlı sosial yardım üçün rüşvət almağa görə tutuldu


World -- Corruption, bribery, generic photo

Respublika Prokurorluğu martın 16-da Qaradağ Rayon Əmək və Əhalinin Sosial Müdafiəsi Mərkəzinin baş məsləhətçisi Şahin Əsədovu həbs etdiyini bildirir. Prokurorluğun yaydığı rəsmi məlumatda deyilir ki, Bakı şəhər sakini Ruhiyyə Qarifulina "161 - Qaynar Xətt" əlaqə mərkəzinə şikayət edərək ünvanlı sosial yardım ala bilmək üçün ondan 450 manat rüşvət tələb olunduğunu bildirib. Şahin Əsədov bu pulun 200 manatını öz xidməti otağında Ruhiyyə Qarifulinadan alarkən həbs edilib. Rəsmi məlumatda deyilir ki, məmurun iş otağından ünvanlı dövlət sosial yardımın alınması üçün nəzərdə tutulan ayrı-ayrı vətəndaşların adlarına olan 100-dən artıq plastik ödəniş kartları, 300-dən artıq plastik ödəniş kartlarına aid məxfi pinkodlar götürülüb.

# Qala - qədim kəndin müasir problemləri

*Abşeronun qədim yaşayış yerlərindən olan Qala kəndinə ayaq basandan tarixiliyi kəndin hər məhəlləsində hiss edirsən. Kənddə, məscidlər, hamamlar, ovdanlar, yaşayış və yardımçı tikililər də daxil olmaqla, 200-dən artıq tarixi-memarlıq abidəsi var. Yəqin elə buna görədir ki, kənd 1988-ci ildən qoruq elan olunub.*

**QALANIN ƏBƏDİ AVTOBUS PROBLEMİ**

Ancaq nə bu qoruq kəndə işləyən avtobus var, nə də qədim torpağı canlandıran su. Bakının 35 kilometrliyində yerləşən kəndin sakinləri qonşu Türkan və Zirə kəndlərinin avtobuslarından istifadə edir. Kəndin kənarındakı yolda avtobusdan düşüb, kəndin içinə qədər olan məsafəni pay-piyada gedirlər. «Bizim şəhərə işləyən avtobusumuz yoxdur. Bir müddət vardı, sonra yığışdırdılar. O da heç kəndin içində dayanmırdı, dördyolda dayanırdı» -deyən kənd sakini Vaqif Abdullayev ağır yükü ilə kənd yolunu tutur. XIV əsrdə tikilmiş Qala divarlarının olduğu hissə kəndin tarixi mərkəzi sayılır. Bu ərazidə təmir işləri aparılıb. Kəndin bu hissəsində işıq, qaz var, asfalt yol salınıb. İrad Şirinov bu məhəllədə yaşayır: «Əvvəllər burada belə şərait yox idi. Muzeyin bizə o xeyri var ki, təmizlikdir. Qaz da gəlir, işıqlarımız da yaxşıdır».

Mətanət Əliyeva isə başqa məhəllə sakinidir. O, deyir ki, digər məhəllələrdə problemlər əvvəllər olduğu kimidir: «Biz məktəb tərəfdə oluruq. Bizim məhəllədə qaz yoxdur, odunun ümidinə qalmışıq. Gözdənuzaq, könüldən iraq yerdəyik. Nə bir gəlib soruşan, nə də bir baxan var».

**SUSUZLUQ VƏ İŞSİZLİK**

Suyun olmaması, işsizlik isə kənd sakinlərinin ümumi problemidir:

- Çox çətinlik çəkirik. Suyu 30-20 manata alırıq, heç bir ay istifadə edə bilmirik.

- Qabaq torpaqda nəsə əkib-becərirdik, indi isə su yoxdur deyə, heç nə edə bilmirik.

- Suyu alırıq, tarixən bu kəndin suyu olmayıb. Hərdən eşidirik, nəsə vədlər verirlər.



Qala kəndi

- Bu kəndin ən böyük problemlərindən biri də işsizlikdir. Nə qadına iş var, nə kişiyə.

**ALTERNATİV NƏQLİYYAT VASİTƏLƏRİ**

Qala kəndində əvvəllər olduğu kimi, indi də heyvandarlıqla məşğul olurlar. Kənddə at, ulaq da görmək olar. Kənd sakini Qismət Qədimovun ulağı var. Deyir ki, ulaq ona çox işdə kömək edir: «Mənə çox köməyi dəyir. Odun, yük gətirirəm. İnək, qoyun saxlayırıq, onlar üçün bununla ot daşıyıram».

***Kəbiran Dilavərli***

# Getməyə yeri olmayan 3 nəfərin 1 sualı

## Uşaq evindən çıxıb hara getməli?



**«Hər iki valideyn tərəfindən imtina olunub Şəki Uşaq Evinə atılmışam. Peşə məktəbini bitirdikdən sonra 15 ildir ki, məcburi köçkünlərlə yaşayırdıq. Bu «budkada» yatırdıq. İndi məcburi köçkünlər köçürüldü, biz qaldıq belə. Hara gedək?». Qəhrəmanım doğulandan taleyi sərt yazılmış 35 yaşlı Bəhruz Mahmudovdur. Deyir, ömür yarıya çatıb, ancaq hələ də özünə gün ağlaya bilmir. Şəki Uşaq Evindən çıxandan sonra onu Bakıya 18 saylı peşə liseyinə oxumağa göndəriblər və liseyin Xətai prospektində yerləşən yataqxanasına yerləşdiriblər. 15 il əvvəl liseyi bitirməsi ilə bərabər yataqxana həyatı da başa çatıb. Ancaq yeri olmadığından uzağa gedə bilməyib. Elə yataqxananın ərazisindəki köşkə sığınıb.**

Bu ilin əvvəlində yataqxanadakı qaçqın və məcburi köçkünlər Mehdiabadda tikilmiş qaçqın şəhərciyinə köçürülüb. Martın əvvəlində isə yataqxana sökülüb. İndi söküntülər arasında bir köşk qalıb. Bəhruz Mahmudov bu köşkdə tək deyil. Uşaq evindən çıxandan sonra həmin yataqxanada yaşayan, lisey təhsilini başa vurub köşkə sığınan 25 yaşlı Eşqin Görüşov, 20 yaşlı Elşən Nərimanov və sonuncunun həmyaşıdı Elşad Məmmədov da hara gedəcəklərini bilmirlər.

**SIĞINACAQ VƏ REABİLİTASİYA MƏRKƏZİ**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sektor müdiri Musa Ağamalıyev həm yetkinlik yaşına çatmayan kimsəsizlərin, həm də uşaq evlərini tərk edənlərin gələcəyi barədə optimist danışır: «Bizim Nazirliyin nəzdində yetkinlik yaşına çatmayanlar üçün 8 sığınacaq və reabilitasiya mərkəzi tikilməsi planlaşdırılıb. Birinin tikintisinə artıq başlanılıb. Bu sığınacaqlar 18 yaşınadək kimsəsiz uşaqlar üçündür. Uşaq evini tərk etmiş və hazırda hara gedəcəyi sual altında olanlara isə, «Sosial xidmət haqqında» qanuna əsasən, sosial xidmətlərin göstərilməsi nəzərdə tutulub».

Nazirlik işçisi deyir ki, həmin qanunda uşaq evini tərk edənlərin yaşayış yeri ilə təmin olunması da nəzərdə tutulur. Ancaq nazirlik yaxın vaxtlarda köşksüzyəni evsiz qalacaq 4 gəncin taleyinə işıq sala bilmir. Çünki 2011-ci ilin dekabr ayında qəbul olunmuş «Sosial xidmət haqqında» qanunun həyata keçirilmə mexanizmi hazır deyil.

**BƏS?...**

Bu, köşkə sığınan Bəhruz Mahmudov və digərlərinin sualıdır. Bir neçə günə köşk ərazidən götürülsə, hara getməli, kimə pənah aparmalı?

**AzadliqRadiosu.az saytında yerləşdirilən videoda bu sualı siz onların öz dilindən eşidə bilərsiniz.**

***Esmira Cavadova***

# Səməd Vurğunun müsavatçıları "satqın və əclaf" adlandırdığı çıxışı


Səməd Vurğun

**"Oxu zalı"nda sovet dövrünə aid arxiv materiallarını heç bir şərh vermədən çap edirik. Məqsəd həmin dövrdə mövcud olmuş abhavanı oxuculara çatdırmaqdır.**

*Teyyub Qurban, "Həqiqət olduğu kimi" kitabından*

*Şair Səməd Vurğunun 1937-ci ildə SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin iclasındakı çıxışı (Arxiv materialı).*

"İlyarım bundan əvvəl bütün bu adamlar (Azərbaycanın repressiyaya uğramış yazıçıları nəzərdə tutulur) ehtiram sahibləri olduqları bir vaxtda mən xalqımın və partiyamın şairi kimi, öz vicdanım və qəlbimdə hiss edirdim ki, Azərbaycanın mədəniyyət cəbhəsində ziyankar bir əl işləyir. Mən görürdüm ki, bu ziyankarlar vicdansızcasına Azərbaycan xalqının dilini, tarixini qiymətləndirmir, Azərbaycan xalq poeziyasını nəşr etmirlər, Azərbaycan ədəbiyyatının nəhəng klassiklərinin əsərlərini nəşr etmirlər.

Görürdüm ki, onlar necə süni olaraq xalq kütlələri arasında sovet hakimiyyətinə, partiyamıza narazılıq hissi yaradıblar. **Bir gün mən Bağırov yoldaşın yanına getdim.** Xalq düşmənlərinin fəaliyyətinə dair mülahizələrimi ona bildirdim və dedim ki, Azərbaycanın fəhlə sinfi və kəndliləri partiyamıza sadiqdirlər, ancaq Azərbaycan ziyalılarının yüksək təbəqəsi xalq mənafeyindən ayrı düşmüşlər, işimizi pozmaq istəyirlər.

Bağırov yoldaş özünəməxsus diqqət və səbr ilə düz dörd saat məni dinlədi. Mənim tənqidim onun xoşuna gəldi və tənqid nəticəsində Azərbaycan Xalq Maarifi Komissarlığını yoxlamaq üçün komissiya təşkil olundu. Növbəti görüş zamanı Bağırov yoldaş mənə dedi: "Sən haqlı imişsən". Şahbazov Xalq Maarifi Komissarlığından uzaqlaşdırıldı, opera teatrında çalışdı, sonra da xalq düşməni kimi ifşa edildi.

Mənim Bağırov yoldaşla görüşlərimdəki mövqeyim banda üzvlərinə çatdı və onlar mənim Bağırov yoldaşla aramı vurmağa, məni partiyamızdan ayırmağa, nüfuzdan salmağa başladılar. Onlar mütəmadi olaraq Bağırov yoldaşa mənim barəmdə yalan məlumatlar verirdilər, mən bunu hiss edirdim. Lakin bütün bu hallarda dəyanətimi itirmirdim.

**Bu şayka və bandalarla mübarizədə mənəvi və bolşevik gümrahlığımı qoruyub saxlayırdım.** Həm döyüşür, həm də yaradıcılıqla məşğul olurdum. Millətçi Ayna Sultanova (hazırda xalq düşməni kimi ifşa olunmuşdur) həmfikirlərinin həbsə alınmasından sonra mənə qarşı mübarizəyə qalxmışdı. Bu həmin Sultanovadır ki, mən onu altı ay bundan qabaq Azərbaycan Sovet Yazıçıları İttifaqının Rəyasət Heyətinin iclasında xalq düşməni adlandırmışdım. Nə üçün? Çünki o öz üzərinə inadlı mübarizə xəttini götürmüşdür. Başqa sözlə desək, millətçiləri Yazıçılar İttifaqından kənar etdikdən sonra, Sultanova bizi qarasına hədəfə götürmüşdü.

Ərz edirdi ki, bu millətçiləri Səməd Vurğun qanadı altına almışdır. Bu, Sultanovanın bizə qarşı apardığı mübarizə metodu idi. Sübut etməyə çalışırdı ki, bir nəfər də olsun pak sovet yazıçısı yoxdur. Mən ötən altı ay ərzində keçmiş millətçilərin heç biri ilə görüşməmişəm. Yayda Kislovodskda olmuşam. Orada Şota Rustavellinin "Pələng dərisi geymiş pəhləvan" poemasının tərcüməsi üzərində işləmişəm. Halbuki altı ay əvvəl bu mümkün deyildi.

Mən Bağırov yoldaşa müraciət etdim ki, məni qəbul etsin. Onunla söhbətimiz yenə də bir neçə saat uzandı. Mən ona mənfur xalq düşmənlərinin bütün əməllərini açıb göstərdim. İzah etdim ki, onlar məni partiyamızın əlindən qoparmaq istəyirdilər. Bu görüşdən sonra hər şey qaydasına düşdü. Bağırov yoldaş sərəncam verdi ki, mənim ədəbi əsərlərim nəşr edilsin. Belə də oldu, bütün partiya və hökumət nəşriyyatları mənim əsərlərimi çap etməyə başladılar.

Mənim yaradıcılığımda guya millətçilik əlamətləri mövcud olmasına dair səciyyəvi bir uydurmanı nəzərinizə çatdırmaq istəyirəm. Ayna Sultanova öz kabinetində, ondan əvvəl Maqsud Məmmədov mənə deyirdilər ki, əsərlərində millətçilik təzahürləri tapmışdılar. Onlardan soruşdum ki, konkret olaraq bu təzahürlər nədən ibarətdir? Onlar mənim şeirimi misal gətirdilər:

Hər kiçik laylada "dərdim var" deyir,
Elin şirin dili, şirin söhbəti.

Onlar mənə bildirirdilər: "Sən Azərbaycan dilini şirin adlandırırsan, elə çıxır ki, özgə dillər acıdır". Mən öz kabinetlərində onların üzlərinə dedim: "Siz parazitsiniz, mən sizin bu zərərli təhqirinizə qulaq assam, öz xalqımın şairi ola bilmərəm, sinəmdə "Lenin" ordenini gəzdirə bilmərəm!"

Mənim yaradıcılığımda millətçilik təzahürləri ola biməz. Çünki mən 1927-ci ildə yazmağa başlamışam. 1920-ci ildən, yəni 17 yaşımdan komsomolun üzvüyəm və başqa məzmunda keçmişim yoxdur. Beləliklə, mənim düşmənlərimlə mübarizəm ilk günlərdən kəskin və barışmaz olmuşdur və bir addım geriyə çəkilməmişəm. Mən qarşıma belə bir məqsəd qoymuşdum: ya öz vəzifəmdə bir şair kimi ölməli, ya da öz mövqeyimdə möhkəm duraraq şərəflə və sonadək sübut etməliyəm ki, onlar ikiüzlü, satqın adamlardır.

Mən çox məhrumiyyətlə dözməli oldum. Həmin vaxtlarda əsərlərimi çap etmədilər. Ancaq oxucular çox həsrətdə qalmadılar. Mən çap olunmağa başladım. Buna görə ilk növbədə partiyamıza, atamız və rəhbərimiz Stalin yoldaşa, xüsusilə mənə çox köməklik göstərmiş Bağırov yoldaşa minnətdaram. Partiyamız və şəxsən Bağırov yoldaş məni hərtərəfli yoxlamadan keçirdi və nəhayət, mən haqlı olduğumu, təmizliyimi, partiyamıza və xalqımıza sədaqətimi göstərdim.

**İfşa olunmuş müsavatçılar (onların adlarını sizə sadaladım) mənim adımı ləkələmək istəyirdilər.** Bu yayda əvvəllər də bu yaramaz müsavatçılardan bir sıra anonim məktublar almışdım. Bir xarakterik məktubu Bağırov yoldaşa göstərdim, oxudu. Siz də məktubla tanış olun və görün ki, onlar nə qədər satqın və əclafdırlar.

# Düdənginskinin qəbri ləğv edilir



Düdənginskinin qəbri, Noy-Ulm, 2009

*Azərbaycan sərkərdəsi Əbdürrəhman Fətəlibəyli-Düdənginskinin qəbri ləğv edilə bilər. Artıq onun Almaniyanın Noy-Ulm şəhərindəki qəbrindən başdaşı götürülüb. Bu barədə Almaniyada yaşayan azərbaycanlı tərcüməçi Qurban Dağlı AzadlıqRadiosuna məlumat verib. Naxçıvanda anadan olmuş, Moskvada hərbi akademiyada təhsil almış və mayor rütbəsində 2-ci Dünya müharibəsində alman ordusuna əsir düşmüş, sonradan isə Sovet Ordusuna qarşı döyüşən və amalı Azərbaycanda müstəqil dövlət qurmaq olan milli legionun komandiri olmuş Düdənginski müharibədən sonra AzadlıqRadiosunun ilk direktoru vəzifəsində çalışarkən sovet kəşfiyyatı tərəfindən qətlə yetirilib.*

O, Noy-Ulmda qardaşı Seyfyulla ilə bir qəbirdə basdırılmışdı. Q.Dağlı bildirib ki, Almaniyada kimsə dəfn edildəndə onun yaxınları ilə qəbiristanlıq idarəsi arasında müəyyən müddətə müqavilə bağlanır. Beləcə, görkəmli hərbçinin ölümündən - 1954-ci ildən indiyəcən qəbrin saxlanmasına görə Noy-Ulmdakı məzarlığa pul ödənib. Amma son müqavilənin başa çatmasından sonra yeni müqavilə imzalanmadığı üçün qəbir ləğv edilə bilər. Q.Dağlı bildirib ki, əgər bu edilməzsə, mayın 31-də Düdənginskinin sümükləri qəbirdən çıxarılacaq, həmin yerdə başqa qəbir yaradılacaq.

Almaniyada qəbiristanlıqlar üçün yerlərin azlığı səbəbindən belə bir praktikadan istifadə edilir. O, Noy-Ulmdakı məzarlıq idarəsi ilə əlaqə saxladığını və başdaşının bərpası və yeni 20 illik müqavilənin imzalanması üçün 3025 avronun lazım olduğunu bildirib. Ə.Düdənginski 1939-cu ildə Finlandiya müharibəsində iştirak edib və "Qırmızı Ulduz" ordeni ilə təltif olunub. Bir müddət Leninqrad dairəsi qərargahında 6-cı şöbənin rəisi işləyib. 1940-cı ilə Sovet Ordusu hissələri Baltikyanı respublikaları işğal etikdən sonra Ə.Düdənginski Riqada yerləşən hərbi qərargaha göndərilib. Düdənginski haqda onunla tanış olan insanların, demək olar ki, hamısının fikirləri xeyli yüksək olub. Sonralar SSRİ-nin Müdafiə naziri olmuş, bir zamanlar Ə.Fətəlibəyli ilə birgə Baş qərargahın Akademiyasında oxumuş Sovet İttifaqı Marşalı A.Qreçko yazırdı: "O, heyrətedici bir aydın ağıla və təhlil düşüncəsinə malik idi və anadangəlmə komandir idi. Hərbi taktika məsələlərində bizim heç birimiz onunla müqayisə oluna bilməzdik".

***Rövşən Qənbərov***

# Şeir müsabiqəsinin 20-liyi açıqlandı



AzadlıqRadiosunun mədəniyyət portalı olan oxuzalı.az-da keçirilən "Ədəbi Azadlıq-2012" Milli Müsabiqəsinin şeir nominasiyası üzrə 20-liyi açıqlandı. Müsabiqəyə qəbul edilmiş 149 müəllifin şeirlərini oxuyan münsiflərin hər biri onlar arasından öz 20-liyini seçib. Biz də onların göndərdiyi 20-liklərdəki balları adi qaydada toplamaqla müsabiqənin yekun 20-liyini hazırlamışıq (sıralama şərtidir): Balayar Sadiq, Elmar Şahmar, Rüqəyyə Kəbiri, Şəhriyar Del Gerani, Elxan Məmmədov, Dilqəm Əhməd, Hafiz Hacıxəlil, Babək Ağayev, Lalə Məhərrəmli, Qəşəm Nəcəfzadə, İntiqam Hacılı, Bəhruz Bəhmənoğlu, Aqşin Evrən, İlqar Kamil, Sevinc el Sevər, Efe Gürsoy, Ayxan Eyvaz, Nilufər Muğantürk, Esmira Məhiqızı, Leyla Nənə.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun




**Kamal Abdullanın "Nobel"ə namizədliyini öz universitetinin alimləri irəli sürüb**



**Vəfa Quluzadə ikinci kitabını yazdı**



Arif Məlikov: **«Yazdığım baletlərin birinin də iyi yoxdur o teatrda»**



Sima Ənnağı: **"Mesajlarından ötrü darıxdım"**



**Ağır əməliyyatdan çıxmış Zəlimxan Yaqubun evində... (Video)**

# Fətullah Gülən, Ərdoğan və ABŞ kəşfiyyatı

**ƏRDOĞANIN YÜKSƏLİŞİ**

Amerikanın "New Yorker" jurnalı "Dərin dövlət" adlı yazısında Türkiyədə Baş nazir Rəcəb Tayyib Ərdoğanın hakimiyyətə gəlişi və islam təmayüllü partiyasının – AKP-nin tədricən hakimiyyətin bütün qolları üzərində hakimiyyəti ələ ala bilməsini əks etdirən yazı dərc edib. Yazıda öncə Ərdoğanın nüfuzundan, Türkiyə üçün gördüyü işlərdən və əldə etdiyi uğurlardan danışılır.

Ancaq sonra əsasən Ərdoğanin hərbçilərin təsirini azaltmağa yönələn fəaliyyəti, Ergenekon və Balyoz cinayət işləri, Türkiyənin bir sıra hərbçilərinin, jurnalistlərinin və iş adamlarının dövlət çevrilişi üçün terror təşkilatı yaratmaq və onu idarə etmək ittihamlarından bəhs edilir. "New Yorker" səslənən ittihamların öncə bir çoxlarına inandırıcı gəldiyini, ancaq sonradan ittiham aktlarındakı faktları araşdıranda onların qurama olmasına dair şübhələrin yarandığını bildirir. Və yazının bir hissəsi də Ərdoğan hökumətinin fərqli düşünən mediaya, jurnalistlərə təzyiqlərindən və Ərdoğanın Fətullah Gülən hərəkatı ilə bağlarından bəhs edir.

Ergenekon adlı mafiyanin üzvü olmaqda ittiham olunaraq məhkəmə qərarı olmadan aylardır həbsdə oturan jurnalistlərdən biri də Ahmet Shıkdır.

Onu rəsmən Ergenokonun təşfiqatçısı olmaqda ittiham eləsələr də, əslində çoxları jurnalistin Baş nazir Ərdoğanın yüksəlişinin arxasındakı adam sayılan Fətullah Gülən – Türkiyə nurçularının lideri və ya başqa adla – Gülən Cemaetiyle bağlı yazılarına görə həbsdə olduğuna kimsə şübhə eləmir.

**"İMANIN ORDUSU" - FƏTULLAH GÜLƏN TƏRƏFDARLARI**

Şhik "İmamın ordusu" adlı kitabı hələ dərc edilməmiş həbs edilmişdi və polis də bu kitabı axtarırdı. Ancaq polislə bərabər bu kitabı onun dostları da ələ keçirdilər və dərc elətdirə bildilər.

"İmamın ordusu" kitabı Fətullah Gülən hərəkatının 1970-ci illərdə İzmirdə yaranmasından bu yana keçdiyi yolu işıqlandırır. Gülən 1938-ci ildə (bəzi mənbələrə görə, 1941) doğulub. 1999-cu ildə Türkiyə hakimiyyəti onu dövlət quruluşunu yıxmağa cəhd cağırışlarına görə həbs etməyə hazırlaşanda ABŞ-a qaçıb. İndi Pensilvaniya ştatında Saylorsburgda yaşayır. Amerikaya mühacirətdən sonra İslam aləminin az qala Müsəlman Qardaşlarından sonra ən böyük hərəkatını qurub. Öz kitabları, mesajları və qurduğu məktəblərində siyasətdən danışılmasa da, çoxları onun siyasi ambisiyalarını gizlətdiyinə inanır.

**GÜLƏN CAMAATI NECƏ YAYILIR**

Gülənin ardıcılları 130-a yaxın ölkədə fəaliyyət göstərir, qurduqları məktəblər, hazırlıq kursları və universitetlər şəbəkəsi ilə yayılırlar və tərəfdarlar toplayırlar. Gülən tərəfdarları olan biznesmenlər adətən bir-birini dəstəkləyir və irəliləməsinə yardım edirlər. İmkan düşdükcə hərəkat üzvlərinin müxtəlif ölkələrdə dövlət vəzifələrinə yüksəlməsinə çalışır. Baş nazir Ərdoğan Gülənci və ya nurçu olmasa da, prezident Abdullah Gul, bir sıra nazirlər və 60-a yaxın deputat hərəkata – cemaata bağllıqlarını gizlətmirlər. Gülənin ümumilikdə Türkiyədə 3 milyona yaxın tərəfdarı var.

Gülənçilər iddia edirlər ki, onların hərəkatı o qədər yayğındır ki, siyasi təşkilat sayıla bilməz. Ancaq keçmiş deputatlardan biri Gülənin vaxtilə Türkiyə hakimiyyətini əl keçirməklə bağlı 25 illik planı olmasından danışır. Deyir ki, bunu indiki nəsil yox, "Qızıl nəsil" həyata keçirəcək. Ancaq Gülənin sözçüsü New Yorkerə deyib ki, onun ustadının rejimi dəyişmək niyyəti yoxdur.

Ancaq Türkiyədə kimsənin inkar etmədiyi bir iddia var ki, Güləncilər türk polisini tamamən ələ keçiriblər. Məhz polis Ergenekon və Balyoz işlərində həbsləri həyata keçirib, iddiaları hazırlayıb. Hətta ABŞ-ın Türkiyədəki keçmiş səfiri James Jeffrey də WikiLeaksə sızan məktublarında bu iddialara inandığını yazırdı.

**FƏTULLAH GÜLƏNİN MƏRKƏZİ KƏŞFİYYAT AGENTLİYİNDƏKİ DOSTLARI**

Maraqlıdır ki, Türkiyə hakimiyyəti Ərdoğana qədər dəfələrlə Güləni Amerikadan istəsə də, onun ekstradisiyasına nail ola bilməyib. Çünki Gülənin çox nüfuzlu amerikalı dostları var. Hər dəfə onun ekstradisiyasına Mərkəzi Kəşfiyyat Agentliyi (CİA)-nin keçmiş yüksək rütbəli məmuru Graham Fullerin yazdığı məktublar mane olub.


Fətullah Gülən

Maraqlıdır ki, Gülənin ABŞ-dan daimi yaşayış statusu alması üçün müraciəti də ABŞ-ın Ankaradakı keçmiş səfiri Morton Abramowitz şəxsən yazıb. Abramowitz 1999-cu ildə Gülənin Türkiyədən qaçmasına və Amerikada yerləşməsinə də yardım edib. Bu faktlar Fətullah Gülənin və hərəkatıınn yüksəlişində Mərkəzi Kəşfiyyat İdarəsinin rolu olması haqda iddialar yaradır.

Jurnalist Ahmet Shik da öz kitabında – "İmamın ordusu"nda Fətullah Gülənlə bağlı bu cür faktlardan, açdığı məktəblərdən, ali məktəbə hazırlıq kurslarından, universitetlərdən, dəstəklədiyi iş adamları, siyasətçilər və başqa əlaqələrdən yazıb, Güləncilərin tədricən Türkiyəni ələ keçirmək və Atatürkün ləğv elədiyi Xilafəti bərpa etmək planlarından yazıb.

**ƏRDOĞAN VƏ GÜLƏN NƏ İSTƏYİR?**

Shik öz həbsini də birbaşa olaraq Gülənçilərin təşkil eldiyini iddia edir. Və Türkiyədə müxalifət və müstəqil mediada çoxları düşünür ki, Gülən hərəkatına qarşı çıxanların əleyhinə aparılan repressiyaların başında məhz Ərdoğan dayanır.

"New Yorker" yazarı sonda qeyd edir ki, indi Türkiyədə Ərdoğanın partiyasının növbəti iki seçkidə də qalib gələcəyinə şübhə edənlər azdır. Ancaq Ərdoğan artıq növbəti dəfə Baş nazir ola bilməz deyə, onun prezident vəzifəsinə keçəcəyi və prezidentin səlahiyyətlərini genişləndirəcəyi, Abdullah Gulun isə Baş nazir olacağını ehtimal edirlər. Ölkədə müxalifətin mövqelərinin zəifləməsi, hərbçilərin siyasi proseslərə təsirinin azalması üzündən Ərdoğan və tərəfdarlarının 2024-cü ilə qədər hakimiyyəti saxlaması artıq real görünür.

***Dexter FIlkins***

# Alim Qasımov «Eurovision» mahnısı haqda nə dedi?


Alim Qasımov

*«Hal-hazırda biz mahnının Azərbaycan versiyası üzərində işləyirik» Bu sözləri Azərbaycanın «Eurovision-2012» təmsilçisi Səbinə Babayeva eurovision.az saytına müsahibəsində açıqlayıb. Xanəndə Alim Qasımov da Səbinə Babayeva ilə bağlı fikirlərini eurovision.az saytına açıqlayıb. Sən demə, Səbinə Babayevanın «When The Music Dies» adlı mahnısını ilk dinləyənlərdən biri Alim Qasımov olub. Mahnının ilk nüsxəsi dinləmək üçün xanəndəyə göndərilib.*

Mahnıyla tanışlıqdan sonra Alim Qasımov melodiyaya uyğun olaraq bir neçə muğamdan, xüsusilə də «Bayatı Şiraz» muğamının «Bayatı İsfahan» şöbəsindən ekspromt boğazlar edib. «When The Music Dies» mahnısında məhz həmin ekspromt ifadan hissələr yer alır.

Alim Qasımov: «Çox maraqlı mahnıdır, təsiredicidir. Əlbəttə, hər şey ifaçıdan, musiqiçilərdən, aranjemandan asılıdır. İndi bizim milli musiqi alətlərimizi də mahnıya qoşublar. Mən ilk dəfə dinləyəndə bu yox idi. Artıq mahnıda Azərbaycan əhvali-ruhiyyəsi yaranıb. Məsləhət oldu ki, mahnıya muğam boğazları əlavə edim. Etdim».

Alim Qasımov Səbinə Babayevanın mahnının öhdəsindən gələcəyinə inandığını bildirib: «Çünki mahnı ilə səs tapışıblar. Arzu edirəm ki, Səbinə xanım özünü heç kəsə oxşatmasın. Mahnını öz daxili aləmində yaşasın. Və bilsin ki, orada bizim gözəl muğamımızın bir hissəsi oxunub. İnşallah, bəyənilər! Uğurlar diləyirəm!».

***Sevda İsmayıllı***

# 1 milyon dollarlıq doğuş

Avstraliyadan olan cütlük - John Kan və Rachel Evans ötən il Kanadaya, Vankuverə gedəndə heç səyahət sığortası şərtlərinə baxmamışdılar da. Ancaq bu onlara çox baha başa gəlib - düz 1 milyon dollara. Məsələ bundadır ki, səfərə gedəndə Rachel hamilə olsa da, hələ vaxtının tamamına düz 14 həftə qaldığından səyahət sığortası müqaviləsində doğuşla bağlı şərtlərə fikir verməyib. Ancaq Vankuverdən Sidneyə qayıdanda, hava limanında qəfil sancıları başlayıb. Xəstəxanaya çatdırılan Rachel burada 26 həftəlik körpəsini – qızı Piperi dünyaya gətirib.

Ancaq Piper çox kiçik və zəif olub. Özü nəfəs ala bilmədiyindən onlar düz 3 ay xəstəxanada qalmalı olublar. Körpəni də xüsusi aparatda saxlayıblar. Sonunda həkimlər ana və qızını xəstəxanadan buraxmaq qərarı verəndə hesabı da atasına təqdim ediblər. Xəstəxana xərcləri hər gün üçün təxminən 9 min ABŞ dollarından hesablanmaqla, 1 milyon dollara yaxın olub.

Öncə John Kan buna elə də fikir verməyib, hesabı sığorta şirkətinin ödəyəcəyini düşünüb. Ancaq belə olmayacağını biləndə xəstəxana ilə danışıqlar aparıblar və razılığa gəliblər ki, ayda 300 dollar olmaqla John bu pulu ödəyəcək. Yəni onun xəstəxanaya borcunun ödənməsi haradasa 278 il çəkəcək.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | AzadlıqFM / Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Korrupsiyametr/ Qaynar Xətt |
| 9:00 | İz / Korrupsiyametr / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 12:05 | AzadlıqFM / Qaynar Xətt / Pen Club / İz / Korrupsiyametr |
| 13:05 | Qərb musiqisi |
| 14:05 | 14-24 / Qaynar Xətt / Azadlıq Bölgələrdə / Pen club / AzadlıqFM / İz / Korrupsiyametr |
| 15:00 | Xəbərlər (şənbə, bazar) |
| 15:05 | Qərb musiqisi. AzadlıqFM / Korrupsiyametr (şənbə-bazar() |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər (şənbə, bazar) |
| 16:05 | Qərb musiqisi / İşdən sonra (şənbə, bazar) |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra / Korrupsiyametr (hər cümə axşamı) |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Kontekst / Online-vəkil (şənbə) |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Qaynar Xətt / Pen club |
| 20:30 | 14-24 / Qaynar Xətt / İslam və demokratiya / Pen club / İz / Korrupsiyametr |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Qafqaz Qovşağı |
| 23:00 | Xəbərlər |
| 23:05 | İşdən sonra / İz / Azadlıq bölgələrdə / 14-24 |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar yayımlanır...

# Simsiz teleqraf

## XXI əsr və məktəb




***25.03.2012. Yükləyib: Aslan***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## Facebook.com/azadliqradiosu




**Qaynar Xətt:** 436-77-41

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Çap Evi" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email:fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz